*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 3, s.67-72*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 3, p.67-72*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 3, с.67-72*

**UOT: 37.016:81’373**
https://doi.org/10.30546/670832.2025.02.1092

# Azərbaycan dili təlimində nitq savadlılığının formalaşmasında cümlə qurmaq vərdişlərinin rolu

**Müəllif(lər):**

**Əhruz Mahmudova**
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
**E-poçt:** Ehruzmahmudova@nmi.edu.az
**Günel Niftalıyeva**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant

**Açar sözlər:** məktəb, nitq, kurikulum, dil qaydaları, qrammatik norma, alt standart

**Annotasiya.** Nitq və cümlə qurmaq bacarıqları insanın şəxsiyyətinin formalaşmasında, təhsil və peşə fəaliyyətində mühüm rol oynayır. Şagirdlərin nitq mədəniyyətinə yiyələnməsi və kommunikativ səriştələrinin inkişaf etdirilməsi müasir təhsildə prioritet məsələdir. Tədqiqatın məqsədi şagirdlərin cümlə qurmaq vərdişlərini inkişaf etdirmək, onların şifahi və yazılı nitqini aydın, məntiqli və ifadəli formada formalaşdırmaqdır.

Tədqiqatın materialı kimi Azərbaycan dili dərslikləri, mətn nümunələri, yaradıcı tapşırıqlar və müəllimlərin iş dəftərləri istifadə edilmişdir. Nəzəri biliklərin mərhələli şəkildə mənimsədilməsi, yaradıcı çalışmalar və mətn üzərində tapşırıqlar şagirdlərin cümlə qurmaq bacarıqlarını möhkəmləndirmişdir. Interaktiv metodlar – elektron lövhələr, video materiallar və təqdimatlar – dinləmə, oxuma və şifahi ifadə qabiliyyətlərini inkişaf etdirmişdir.

Tədqiqat göstərdi ki, cümlə qurmaq vərdişlərinin inkişafı şagirdlərin nitq mədəniyyətinin formalaşmasında əsas rol oynayır. Yaradıcı və interaktiv metodların sintezi şagirdlərin kommunikativ bacarıqlarını effektiv şəkildə artırır, onların fikirlərini düzgün, aydın və məntiqli ifadə etmələrinə şərait yaradır. Cümlə qurmaq bacarıqlarının məqsədyönlü inkişafı tədris prosesində vacib prioritetdir və gələcək təhsil və peşə fəaliyyətində nitq və təqdimat qabiliyyətlərinin səmərəli nümayişinə zəmin yaradır. Davamlı metodik araşdırmaların aparılması tövsiyə olunur.

## The Role of sentence making skills in forming speech literacy in Azerbaijani language teaching

**Author(s):**

**Ahruz Mahmudova**
Nakhchivan Teachers İnstitute
PhD on Philology, Associate Professor
**E-mail:** Ehruzmahmudova@nmi.edu.az
**Gunel Niftaliyeva**
Nakhchivan Teachers Institute
Master Student

**Key words:** school, speech, curriculum, language rules, grammatical norm, substandard

**Abstract.** Speech and sentence making skills play an important role in the development of a personality, as well as in education and professional activity. Mastering speech culture and developing students’ communicative competence is an essential issue in modern education. The objective of this study is to develop students’ sentence making skills and to shape their oral and written speech in a clear, logical and expressive manner.

The study utilized Azerbaijani language textbooks, text samples, creative assignments and teachers’ workbooks as research materials. Gradual acquisition of theoretical knowledge, creative exercises, and text-based tasks strengthened students’ sentence making abilities. Interactive methods - such as electronic boards, video materials making and presentations - enhanced listening, reading and oral expression skills.

The research showed that, the development of sentence making skills plays a key role in shaping students’ speech culture. The combination of creative and interactive methods effectively improves students’ communicative skills, allowing them to express their ideas correctly, clearly and logically. Purposeful development of sentence making skills is an essential issue in the teaching process and provides base for effectively demonstrating speech and presentation skills in future education and professional activities. Continuous methodological research is recommended.

## Роль навыков построения предложений в формировании речевой грамотности в обучении азербайджанскому языку

**Автор(ы):**

**Ахруз Махмудова**
Nakhchivan Teachers İnstitute
Доктор философии по филологии, доцент
**Э-почта:** Ehruzmahmudova@nmi.edu.az
**Гюнель Нифталиева**
Нахчыванский институт учителей
Магистрант

**Ключевые слова:** школа, речь, куррикулум, языковые правила, грамматическая норма, подстандарт

Аннотация. Речевые и синтаксические навыки играют важную роль в формировании личности человека, его образовательной и профессиональной деятельности. Овладение учащимися культурой речи и развитие коммуникативных компетенций является приоритетной задачей современного образования. Цель исследования заключается в развитии у учащихся навыков построения предложений и формировании их устной и письменной речи в ясной, логичной и выразительной форме.

В качестве материала исследования использованы учебники по азербайджанскому языку, текстовые образцы, творческие задания и рабочие тетради учителей. Поэтапное усвоение теоретических знаний, творческие упражнения и задания по работе с текстом способствовали укреплению навыков построения предложений. Интерактивные методы - электронные доски, видеоматериалы и презентации - развивали навыки аудирования, чтения и устной речи.

Исследование показало, что развитие навыков построения предложений играет ключевую роль в формировании речевой культуры учащихся. Синтез творческих и интерактивных методов эффективно повышает коммуникативные навыки, создавая условия для правильного, чёткого и логичного выражения мыслей. Целенаправленное развитие навыков построения предложений является важным приоритетом учебного процесса и формирует основу для успешной речевой и презентационной деятельности в будущем.

**Giriş.** Bütün dövrlərdə insanın nitqi, danışığı onun haqqında ilkin təəssürat yaratmışdır. Aydın, məntiqli qurulmuş nitq insanın bilik və mədəniyyətindən xəbər verir. İnsanın şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayan vasitələrdən biri onun nitqidir. Mükəmməl nitqə, təqdimetmə qabiliyyətinə malik olan şəxslər cəmiyyətdə, istənilən peşə sahəsində uğur qazanaraq özlərini təsdiq edə bilirlər.

Nitq savadlılığı nədir? İnsan öz fikrini həm şifahi, həm də yazılı formada düzgün, aydın, mən-tiqi və ifadəli şəkildə çatdıra bilirsə demək bu bacarığa yiyələnə bilmişdir. Nitq inkişafına məktəbəqədər dövrdən başlanır. Uşaqların rabitəli nitqini inkişaf etdirən məşğələlərdə ardıcıl və sistemli iş aparılır. Nitq bacarıqlarını yaxşı mənimsəmiş uşaqlar həm şifahi, həm də yazılı nitqi rahatlıqla başa düşür, anlayır, ünsiyyətdə olduğu insanlarla, yoldaşları ilə nitqlərini düzgün qura bilirlər. Həmyaşıdları ilə, yaşlı insanlarla söhbət edərkən öz fikirlərini aydın, dəqiq ifadə edir, valideynlərindən, tərbiyəçidən aldıqları tapşırığın yerinə yetirilməsi zamanı dəqiq məlumat verməyi öyrənirlər. Fikirlərini valideynləri ilə, tərbiyəçilərlə, yoldaşları ilə bölüşə bilirlər. Ətraf aləmdə rastlaşdıqları əşya və hadisələrin adlarını dəqiq tələffüz etməyi, qrammatik cəhətdən düzgün, obrazlı, canlı danışmağı öyrənirlər. Gözəl, aydın, obrazlı, dəqiq nitqə hamı malik olmalıdır. Bağça müəllimi, tərbiyəçi natiqlik sənətinə, uşaqlarda rabitəli nitqin inkişaf etdirilməsinə daha çox əhəmiyyət verməlidir. Nitqi yaxşı olan, natiqlik sənətinin sirlərini yaxşı bilən tərbiyəçi müəllim uşaqları öyrətməkdə çətinlik çəkmir, uğurlu nəticələr əldə edir. Mükəmməl nitq bacarıqları, cümlə qurmaq vərdişləri əldə edən uşaqlar orta məktəbdə çətinlik çəkmirlər.

Cümlə qurmaq vərdişlərinin inkişaf etdirilməsi üçün tədris prosesində müəllimin diqqət edəcəyi məqamları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Nəzəri biliklərin mənimsədilməsi. Şagirdlər ibtidai təhsil səviyyəsindən başlayarq cümlə anlayışını mənimsəyir, cümlənin növləri, istifadə olunan durğu işarələri haqqında nəzəri biliklər alırlar. Cümlənin sadə və mürəkkəb olması, onlar arasında sintaktik əlaqələrin cümlə yaratmaqda rolunu öyrənirlər. Cümlənin üzvləri, onların işlənmə yeri, cümlədə söz sırası və s. kimi nəzəri biliklər dinləyib anladıqlarını ifadə etməkdə şagirdlərin köməyi olur. Azərbaycan dili fənninin əsas missiyası şagirdlərdə nitq mədəniyyətini formalaşdırmaqdır. "Nitq inkişafı çox geniş və çətin bir problemdir. O, bir sıra məsələlərlə: lüğət üzrə iş, cümlə qurmaq bacarığı, ədəbi tələffüz, üslubiyyat, rabitəli nitq və s. məsələlərlə bağlıdır. Digər tərəfdən, nitq inkişafına səbəb olan mənbələr də çoxdur: tədris-təlim prosesi, müxtəlif cür ünsiyyət formaları, sinifdən və məktəbdənxaric təlim işləri, radio, televizya verilişləri, kini-teatr tamaşalarına baxış, inernet və s." [4, s.362].

Azərbaycan dili fənninin məzmunu, nitq fəaliyyətinin növləri, dil qaydalarının öyrədilməsi müvafiq məntiqi ardıcıllıqla sadədən mürəkkəbə prinsipi əsasıda qurulmuşdur. Məsələn, ümumi orta təhsil səviyyəsində dil qaydaları məzmun xətti üzrə standartlardan birinin verilmə ardıcıllığına diqqət edək:

4.1. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.

4.1.1. Sadə fonetik təhlil aparır.

4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları (bəzi mürəkkəb adlar) məqamına uyğun tətbiq edir.

4.1.3. Mətndəki yeni sözlərin və adların mənasını, yazılışını müəyyənləşdirmək üçün lüğətdən, ensiklopediyadan istifadə edir.

4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir.

4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir.

4.1.6. Cümlə və onun növləri ilə əlaqədar kiçik təqdimatlar edir.

4.1.7. Cümlənin məqsəd və intonasiyasına görə növünü müəyyənləşdirir (IV sinif) [1].

Yuxarı siniflərə qalxdıqca bu nəzəri biliklər daha da dərinləşdirilərək şagirdlərin cümlə qurmaq vərdişlərinin inkişaf etdirilməsində əhəmiyyətli rol oynayır. Məsələn:

4.1.1. Cümləni məqsəd və intonasiyaya görə növlərə ayırır

4.1.1. Cümlənin qrammatik əsasını müəyyənləşdirir (VI sinif)

4.1.1. Cümlələri quruluşuna görə fərqləndirir (VII sinif)

4.1.1.Sadə cümlənin növlərini fərqləndirir (VIII sinif)

4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir (IX sinif) [1]

2. Yaradıcı çalışmalardan istifadə olunması şagirdlərin nitqini inkişaf etdirən yaradıcı çalışmalardan istifadə olunması onların cümlə qurmaq vərdişlərinə təkan verən vacib amillərdən hesab olunur. Şagirdlər cümlə üzvləri, onların əlaqəsi və ardıcıllığının gözlənilməsi haqqında olan bilik və bacarılarını praktik və yaradıcı çalışmalarla möhkəmləndirir və tətbiq etmə baca-

rıqlarını nümayiş etdirirlər. Belə çalışmalar şifahi və yazılı şəkildə yerinə yetirilir. Çalışmalar bir çox istiqamətlərdə: suallara cavab, buraxılmış sözləri yerinə qoymaqla cümlələri tamamlamaq, cümləni genişləndirmək, dağınıq verilmiş sözlərdən cümlə qurmaq, müəyyən mövzuya aid cümlələr qurmaq, söz birləşmələri tərtib etmək və onları cümlələrdə işlətmək, iki-üç cümləni bir sadə geniş və mürəkkəb cümlə şəklində birləşdirmək, cümlədə bu və ya sözü qrammatik formanı başqası ilə əvəz etmək, çalışma üçün verilmiş mətndən obrazlı ifadələri seçib onları başqa cümlə içərisində işlətmək, cümlədə sözlər arasındakı əlaqəni müəyyənləşdirmək, verilmiş model əsasında müxtəlif sintaktik quruluşda cümlələr qurmaq, mənanı saxlamaqla cümləni başqa formada ifadə etmək, qrammatikadan öyrənilmiş dil faktının, qrammatik formanın işləndiyi cümlələri seçib yazmaq, verilən sözləri müxtəlif qrammatik formada işlətməklə cümlə qurmaq və s. aparılmaqla şagirdlərdə nitq inkişafı və cümlə qurmaq vərdişləri formalaşdırır.

3. Mətn tapşırıqları üzərində iş də bu baxımdan maraqlıdır. Azərbaycan dili dərsliklərinə müxtəlif mövzularda salınmış mətnlərin üzərində işin təşkili şagirdlərdə cümlə qurmaq vərdişlərinin formalaşmasına imkan və şərait yaradır. Mətnlərin oxusu zamanı şagirdlərdə oxuyub anlama, düşünmə, fikrini ifadə etmə, münasibət bildirmə və s. kimi bacarıqlar inkişaf etdirilir. Bu prosesi yerinə yetirmək üçün düzgün, anlaşılan cümlələr qurmaq lazımdır. Mətn üzərində iş düzgün qurulan zaman şagird mətndəki əsas fikri anlayaraq danışa bilir.

Cümlə qurmaq vərdişləri tədricən və məqsədyönlü şəkildə aparılır. Bu vərdişləri formalaşdırmaq üçün müxtəlif üsul və texnologiyalardan, sual və testlərdən istifadə olunur. Bədii mətn(lər) üzərində şagirdlərdə cümlə qurmaq vərdişlərinin aparılması qaydalarına aid mətn nümunəsi üzərində aşağıdakı məzmunda suallar qoyulur. Məsələn:

1. Mətndə nöqtələrin yerinə hansı ifadə yazılsa, məzmuna daha çox uyğun gələr?

2. Hansı atalar sözü mətnin ideyasına daha çox uyğun gəlir?

3. Mətndən götürülmüş aşağıdakı cümlədə qara hərflə göstərilmiş sözü hansı sözlə əvəz etmək olar?

4. Mətni abzaslara ayırıb, plan qurun.

5. Mətn hansı üslubda yazılmışdır? Niyə belə düşünürsünüz?

____________________________________________________________

____________________________________________________________

6. Mətnin üslubunu xarakterizə edən fikirləri yazmaqla klasteri tamamlayın.

| | |
|---|---|
| | |
| Üslubu:..................... | |
| | |

7. Mətnin qısa məzmununu yazın.

____________________________________________________________

____________________________________________________________

8. Mətnin nəticə hissəsinin məzmununa uyğun 3 bənddən ibarət plan yazın. (Diqqət: Planda ardıcıllıq gözlənilməlidir)

____________________________________________________________

____________________________________________________________

9. Mətnin giriş və əsas hissəsini əlaqələndirə biləcək cümləni müəyyən edin.
10. Nöqtələrin yerinə hansı sözü yazmaq olar?
11. Sillogizmi quraraq mətndəki hadisələrin gedişini müəyyən edin.
I hökm:
II hökm:
Nəticə: ................................
12. Mətnin giriş hissəsinin planını qurun

____________________________________________________________

____________________________________________________________

13. Mətnin ideyası nədir?

____________________________________________________________

____________________________________________________________

14. Altından xətt çəkilmiş ifadənin mənasını izah edin.

____________________________________________________________

____________________________________________________________

Bu kimi tapşırıqları mətn üzərində icra etməklə, sualları cavablandırmaqla şagirdlərin cümlə qurmaq vərdişlərini inkişaf etdirmək olar.

Diqqətlə oxunan mətn şagirdin əsas fikir və təsvir olunan hadisələrin ardıcıllığını qavramasına və yadda saxlamasına kömək edir. Oxu mərhələsindən sonra sualların verilməsi sagirdlərin şifahi nitq fəaliyyətini artırır. Mətndə əsas fikrin ifadə olunmasında işlədilən söz və ifadələrin leksik mənasının anlaşılması şagirdlərə sadə cümlələr qurmaq imkanı verir.

Şagirdlərdə dinləmə qabiliyyəti, dinlədiyi bədii mətni eyni vaxtda qavrama, həmçinin dinlədiyi şəxsə cavab vermə vərdişini yaratmaq üçün elektron lövhələrin imkanlarından istifadəyə, video materiallarının innovativ, interaktiv tədris metodlarının tətbiqinə üstülük verilməlidir. Dinlənilən mətnin məzmunundakı əsas və əlavə fikri müəyyənləşdirmək, materialın məzmunu daha yaxşı anlamaq və fikri dəqiqləşdirmək məqsədilə dinləmə zamanı qeydlər aparmaq lazım gəlir. Bu da mətnin məzmununu şərh edərkən şagirdlərin informasiyanı düzgün vermək, şifahi təqdimatlar nümayiş etdirə bilmək kimi bacarıqları formalaşdırır. Təqdimat zamanı əsas məlumatı çatdırmaq üçün istifadə edəcəyi söz və ifadələri, ifadələrin intonasiyasını düzgün seçir.

Son illər şagirdlərin nitq mədəniyyətinə yiyələnmələri aktuallaşdığı üçün ibtidai siniflərdən başlayaraq ritorika (natiqlik və nitq) adı ilə natiqlik sənətinin müəyyən elementləri barədə sadə məlumat verilir və bu sənətə yiyələnməyin yolları üzrə praktik məşqlər aparılır, bu çox faydalı tədbirdir. III sinif dərsliyində yazılır:

“Dinləmək və oxumaq bacarığı başqalarını anlamaq, məlumat almaq üçündür. Danışmaq və yazmaq bacarığı bildiklərimizi və düşündüklərimizi başqalarına anlatmaq üçündür”.

“Danışma – bildiklərimizi, düşündüklərimizi və hisslərimizi başqalarına çatdırmağın yollarından biridir [4, s.362].

Nitqin dinləyicilərin hisslərinə təsir edə bilməsi, fikrin düzgün, anlaşıqlı olması üçün ifadəli nitqdən istifadə olunur. Nitq mədəniyyətinin normalarını, nitqin elementlərini yaxşı bilmək, onlara riayət etməyi bacarmaq üçün şagirdlərə aşağıdakıları öyrətmək lazımdır:

- Məzmun. Şagirdin nitqində əsas element hesab olunur ki, şagirdin biliyi və söz ehtiyatını bununla müəyyən etmək olur.
- Təbiilik. Özgüvənli olmaq, özünə inanmaq, nitqini dinləyicilərin anlaq səviyyəsinə uyğun qurmaq.
- Aydınlıq. Məzmunu dəqiq ifadə etmək, dinləyənlərin eşidə biləcəyi tərzdə danışma, nitqin səs mədəniyyətinin gözlənilməsi.
- Natiqin səsində, üz ifadəsində emosionallığın hiss olunması.
- Jest, mimik hərəkətlərin qaydasında istifadə olunması.
- Kompozisiya.
- Yığcamlıq. Lakonik ifadələrin işlədilməsi, az sözlə geniş mənanın ifadə olunması.
- Səsin tonuna diqqət olunması.

Azərbaycan dili dərsliklərində müxtəlif mövzularda salınmış mətnlərin yerinə yetirilməsi, nəzəri biliklərin mənimsədilməsi, yaradıcı çalışmalardan istifadə olunması şagirdlərdə cümlə qurmaq vərdişlərini formalaşdırmaq olar. Belə olan surətdə şagirdlər istədiyi fikri, ideyanı çatdırmaqda çətinlik çəkmirlər. Gələcək iş həyatında və yaxud istənilən auditoriyada özünü ifadə edərkən təqdimat etmə bacarığı nümayiş etdirə bilirlər.

Ümumtəhsil orta məktəblərində tədris olunan bütün fənlər şagirdlərin şifahi və yazılı nitqinin inkişaf etdirilməsində mühüm rol oynayır. Azərbaycan dili fənni isə müstəsna əhəmiyyət daşıyır. Fənnin məzmun standart və alt standartları şagirdlərə dilin qrammatik və yazı qaydalarını, kommunikativ imkanlarını öyrədir. Müxtəlif səviyyələr üzrə şagirdlərdə fikirlərini aydın, məntiqi və qrammatik cəhətdən düzgün ifadə etmək bacarıqları formalaşdırır.

**Material və metodlar.** Tədqiqatın materialı kimi ümumi orta təhsil məktəblərinin Azərbaycan dili dərslikləri, müxtəlif mövzularda hazırlanmış mətn nümunələri, yaradıcı tapşırıqlar və müəllimlərin iş dəftərləri seçilmişdir. Mətn nümunələri şagirdlərin cümlə qurmaq vərdişlərinin inkişaf etdirilməsi, şifahi və yazılı nitqin düzgün, aydın, məntiqli və ifadəli formalaşdırılması üçün əsas vasitə kimi istifadə olunmuşdur. Nəzəri biliklərin mənimsədilməsi prosesi cümlənin növlə-

ri, üzvləri, durğu işarələri və sintaktik əlaqələrin öyrədilməsi üzərində qurulmuşdur. Bu biliklər sadədən mürəkkəbə prinsipi əsasında mərhələli şəkildə verilib ki, şagirdlər həm cümlənin strukturunu, həm də məqsəd və intonasiyasına görə növlərini düzgün başa düşsünlər.

Tədqiqatda yaradıcı çalışmalar və mətn üzərində tapşırıqlar şagirdlərin cümlə qurmaq bacarıqlarını möhkəmləndirmək üçün tətbiq edilmişdir. Şagirdlər suallara cavab vermək, buraxılmış sözləri tamamlayaraq cümlələr yaratmaq, dağınıq sözlərdən mənalı cümlələr qurmaq, sadə və mürəkkəb cümlələri birləşdirmək, söz və ifadələri müxtəlif qrammatik formaya uyğun istifadə etmək imkanına malik olmuşlar. Mətnlərin oxunması və şagirdlərin cavabları əsasında analitik və müşahidə metodları tətbiq olunmuş, onların əsas fikri anlama, fikirlərini ifadə etmə və nitq vərdişlərinin inkişafı qiymət-ləndirilmişdir.

Tədqiqatda texnoloji və interaktiv metodlardan da istifadə edilmişdir. Elektron lövhələr, video materiallar və digər interaktiv tədris vasitələri vasitəsilə şagirdlərin dinləmə və təqdimat bacarıqları inkişaf etdirilmiş, dinlənilən materialın əsas və əlavə fikirlərini müəyyən etmək, qeydlər aparmaq və şifahi təqdimatlar etmək şagirdlərin nitq mədəniyyətini və cümlə qurmaq bacarıqlarını möhkəmləndirmişdir. Tətbiq olunan material və metodlar şagirdlərin nitq mədəniyyətini artırmaq, cümlə qurmaq vərdişlərini sistemli şəkildə inkişaf etdirmək və fikirlərini düzgün, aydın, məntiqli və ifadəli formada çatdırmaq qabiliyyətini formalaşdırmaq üçün əsaslı baza yaratmışdır.

**Nəticə və müzakirə.** Tədqiqatın nəticələrinə görə, şagirdlərin cümlə qurmaq vərdişlərinin inkişafı onların nitq mədəniyyətinin formalaşmasında mühüm rol oynayır. Azərbaycan dili dərsliklərində nəzəri biliklərin mərhələli şəkildə verilməsi, sadədən mürəkkəbə prinsipi əsasında cümlə növləri, üzvləri və durğu işarələrinin öyrədilməsi şagirdlərin fikirlərini aydın, məntiqli və qrammatik cəhətdən düzgün ifadə etmələrinə şərait yaratmışdır. Yaradıcı tapşırıqlar və mətn üzərində aparılan işlər şagirdlərin öyrəndiklərini praktik tətbiq etməsinə imkan verərək onların nitq bacarıqlarını möhkəmləndirmişdir.

Tədqiqat göstərdi ki, interaktiv metodların tətbiqi – elektron lövhələr, video materiallar, mətn üzrə suallar və təqdimatlar – şagirdlərin dinləmə, oxuma və şifahi ifadə qabiliyyətlərini əhəmiyyətli dərəcədə artırır. Şagirdlər oxunan və ya dinlənilən mətnin əsas və əlavə fikirlərini müəyyən etmək, mətnin ardıcıllığını anlamaq, həmçinin cümlələri düzgün və mənalı şəkildə qurmaq bacarıqlarını inkişaf etdirmişlər. Bu da onların gələcək təhsil həyatında və peşə yönümlü fəaliyyətlərində nitq və təqdimat qabiliyyətlərini effektiv şəkildə nümayiş etdirmələrinə zəmin yaradır.

Müzakirə nəticəsində aydın oldu ki, cümlə qurmaq vərdişlərinin inkişafı yalnız nəzəri biliklərin mənimsənilməsi ilə məhdudlaşmır. Yaradıcı fəaliyyət, mətn üzərində iş və interaktiv metodların sintezindən istifadə olunması şagirdlərin nitq və kommunikativ bacarıqlarının keyfiyyətli şəkildə formalaşmasına xidmət edir. Beləliklə, tədris prosesində cümlə qurmaq bacarıqlarının məqsədyönlü inkişaf etdirilməsi, nitq mədəniyyəti və ifadə qabiliyyətlərinin artırılması təhsilin vacib prioritetlərindən biridir və bu sahədə davamlı metodik araşdırmaların aparılması tövsiyə olunur.

**Yekun nəticə.** Tədqiqat göstərdi ki, şagirdlərin cümlə qurmaq vərdişlərinin inkişafı onların nitq mədəniyyətinin formalaşmasında əsas rol oynayır. Nəzəri biliklərin mərhələli şəkildə öyrədilməsi, yaradıcı tapşırıqların və mətn üzərində işin təşkili, interaktiv və innovativ metodların tətbiqi şagirdlərin fikirlərini aydın, məntiqli və qrammatik cəhətdən düzgün ifadə etmələrinə şərait yaradır. Eyni zamanda, dinləmə, oxuma və şifahi ifadə bacarıqlarının inkişafı onların kommunikativ səriştələrini artırır və gələcək təhsil və peşə fəaliyyətlərində təqdimat və nitq qabiliyyətlərini effektiv şəkildə nümayiş etdirmələrinə imkan verir. Beləliklə, cümlə qurmaq vərdişlərinin məqsədyönlü inkişafı tədris prosesində vacib prioritet hesab olunur və bu sahədə davamlı metodik araşdırmaların aparılması tövsiyə olunur.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün azərbaycan dili üzrə təhsil

proqramı (kurikulumu) (I-XI siniflər), – Bakı, – 2013
2. Abdullayev, N.Ə. Nitq mədəniyyətinin əsasları. / N.Ə.Abdullayev. – Bakı: Elm və təhsil, – 2013, – 277 s.
3. Həsənli, B.A. Ədəbiyyatın tədrisi metodikası. Pedaqoji ali məktəblər üçün dərs vəsaiti. / B.A.Həsənli. – Bakı: Müəllim, – 2012, – 360 s.
4. Cəfərova, N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası (Dərslik). II hissə. N.B.Cəfərova. – Bakı: ADPU, 2019. – 430 s.

*Məqalə filologiya üzrə fəlsəfə doktoru, dosent Həsənəli Eyvazlı tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 26.05.2025, son daxilolma – 14.07.2025, qəbulolunma – 10.09.2025